# Böyük duyğular nağməkarı Molla Pənah Vaqif



Natəvan Mədətzadənin rəhbərlik etdiyi Astar rayon mərkəzi kitabxanasında tez-tez geniş oxucu kütləsinin marağına səbəb olan tədbirlər təşkil edilir. Mədəniyyət ocağının növbəti tədbiri isə görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 305 illiyinə həsr olunmuşdu. "Böyük duyğular nəğməkarı Molla Pənah Vaqif" mövzusunda keçirilən tədbirin qonaqları Astara Pedaqoji Kollecin müəllim və tələbələri, M.Ə.Sabir adına şəhər 1 saylı orta məktəbinin müəllim və şagirdləri idilər.

Kitabxananın xidmət şöbəsinin müdiri Yaqut Nəzərova Azərbaycanın çox əsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş qüdrətli söz ustasının yaradıcılığı haqqında tədbir iştirakçılarına ətraflı danışıb dedi:- Bir qayda olaraq M.P.Vaqifin yaradıcılığı daim tədqiqat obyektinə çevrilmiş, əsərləri böyük tirajla nəşr edilmiş və dəfələrlə yubileyi keçirilib. O, öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. Dəyərini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir.

1982-ci il yanvarın 14-də xalqımızın böyük oğlu Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə qədim mədəniyyət mərkəzimiz Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olub. Məhz bu səfər çərçivəsində Ulu Öndər Vaqif Poeziya Günlərinin keçirilməsi ilə əlaqədar göstəriş verib, elə həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşa şəhərində Vaqif Poeziya Günləri keçirilib.

M.Ə.Sabir adına şəhər 1 saylı orta məktəbin müəllimi G.Babazadə, kitabxananın əməkdaşları G.Dadaşova, A.Qasımova öz çıxışında dahi şairin həyat və yaradıcılığı haqqında yadda qalan faktlara toxundular . Şagirdlər isə M.P.Vaqifin gözəlliyi, saf məhəbbəti vəsf edən yaradıcılığından nümunələr söylədilər.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***